# Naxçıvanlı alim xarici müsabiqə qalibidir

**AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, mətnşünas alim, filologiya elmləri doktoru, dosent Səbuhi İbrahimov beynəlxalq tədqiqat müsabiqəsinin qalibi olub.**




"Elmdə sonsuz işıq" Beynəlxalq Tədqiqat Mərkəzi tərəfindən təşkil olunan və elmi-pedaqoji müəssisələr arasında keçirilən müsabiqə elmi tədqiqatların stimullaşdırılması, alimlər arasında beynəlxalq elmi əməkdaşlığın təşviqi və fundamental araşdırmaların dəyərləndirilməsi məqsədilə təşkil olunmuşdu. Dosent Səbuhi İbrahimovun filologiya və mətnşünaslıq sahəsində apardığı tədqiqatlar elmi-nəzəri əhəmiyyətinə görə münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Sınağın nəticələrinə əsasən, alim I dərəcəli Diplom və "Ən yaxşı gənc alim" medalı ilə təltif edilib.

Bu mükafat Səbuhi İbrahimovun klassik ədəbiyyatın tədqiqi, mətnşünaslıq və ədəbi irsin qorunması istiqamətindəki elmi fəaliyyətinin beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınmasının göstəricisidir. Bu cür beynəlxalq nailiyyətlər Azərbaycan elminin qlobal elmi məkanda tanıdılmasına və elmi əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

***XQ***

Xalq qəzeti .- 2025.- 4 aprel (№64).- S.10.